Peşə təhsili və insan kapitalı. Cild 8, №4, 2025, s.94-97

# PEŞƏ TƏMAYÜLLÜ SİNİFLƏRDƏ KEYFİYYƏT MONİTORİNQİNİN ƏHƏMİYYƏTİ



**Mehriban Eyvazova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin*
*baş mütəxəssisi*
*e-mail: m.eyvazova@arti.edu.az*

**Günel Fərəcova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə və ömürboyu təhsilin proqramları*
*şöbəsinin mütəxəssisi*
*e-mail: g.ferecova@arti.edu.az*



*https://doi.org/10.30546/2706-7858.2025.4.056*

**UOT:** 377

**Xülasə.** *Tədris prosesinin keyfiyyətini artırmaq və idarə etməni dəstəkləmək üçün monitorinqlər mühüm mexanizmlərdir. Mütəmadi olaraq monitorinqlərin aparılması ilə tədrisdə mövcud çatışmazlıqlar vaxtında aşkar olunaraq onların aradan qaldırılması üçün müvafiq tədbirlər görülür. Bu tədbirlər sayəsində də tədris prosesi daha səmərəli təşkil olunur. Məqalədə peşə təmayüllü siniflərdə aparılan keyfiyyət monitorinqinin effektivliyindən, təhlilindən və nəticələrinin əhəmiyyətindən danışılır.*

***Açar sözlər:*** *peşə təmayüllü siniflər, əmək bazarı, peşə ixtisasları, ilkin peşə bacarıqları, monitorinq, qiymətləndirmə, emalatxana, qrup rəhbəri, ixtisas müəllimi, əsas səriştələr modulu.*

***Key words:*** *vocational-oriented classes, labor market, vocational specialties, initial professional skills, monitoring, assessment, workshop, group supervisor, vocational teacher, core competencies module.*

***Ключевые слова:*** *профессионально-ориентированные классы, рынок труда, профессиональные специальности, начальные профессиональные навыки, мониторинг, оценивание, учебная мастерская, руководитель группы, преподаватель специальности, модуль базовых компетенций.*

Son illərdə əmək bazarında sürətlə dəyişən tələblər və texnoloji yeniliklər təhsil müəssisələrində erkən peşəyönümlü hazırlığın əhəmiyyətini daha da artırmışdır. Müasir təhsil sistemi yalnız nəzəri biliklərin verilməsi ilə kifayətlənmir, eyni zamanda şagirdlərin praktiki bacarıqlarını inkişaf etdirməyi, çevik düşüncəyə malik olmağı və əmək bazarının dəyişən tələblərinə uyğunlaşma qabiliyyətini formalaşdırmağı hədəfləyir. Bu baxımdan peşə təmayüllü siniflər (PTS) şagirdlərin peşə bacarıqlarını erkən yaşlardan məqsədyönlü şəkildə inkişaf etdirməyə xidmət edən inteqrativ təhsil modeli kimi xüsusi əhəmiyyət daşıyır. 2022–2026-cı illər üçün nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində PTS-lərin təşkili və tədrisin keyfiyyətinin artırılması prioritet hədəf kimi müəyyən edilmişdir. Peşə təmayüllü siniflər ümumi təhsilin məzmununu ixtisasyönümlü bilik və bacarıqlarla zənginləşdirərək şagirdlərin gələcək peşə seçimində və əmək bazarına adaptasiyasında mühüm rol oynayır. Tədris prosesinin müasir tələblərə uyğun qurulması, mütəmadi izlənilməsi, təhsilalanların nailiyyətlərinin obyektiv qiymətləndirilməsi keyfiyyət monitorinqinin əsas məqsəd-

lərindən biridir.

**Keyfiyyət monitorinqinin mahiyyəti**

Keyfiyyət monitorinqi yalnız qiymətləndirmə və hesabat xarakteri daşımır, həm də tədris prosesinin təkmilləşdirilməsi üçün praktik alət rolunu oynayır. Monitorinqin effektivliyi aşağıdakı prinsiplərə əsaslanır:

- ***Obyektivlik:*** Qiymətləndirmə qərəzsiz aparılmalı, indikatorlar əvvəldən müəyyən edilməlidir.
- ***Davamlılıq:*** Proses müntəzəm aparılmalı və nəticələr zamanla müqayisə edilməlidir.
- ***Şəffaflıq:*** Nəticələr açıq təqdim edilməli, bütün maraqlı tərəflər məlumatlandırılmalıdır.
- ***Sistemlilik:*** Tədrisin bütün aspektləri (məzmun, təşkilati proses, müəllim və şagird fəaliyyəti) nəzərə alınmalıdır.

Bu prinsiplər nəticələrin dəqiqliyini, prosesin ardıcıllığını və hesabatların etibarlılığını təmin edir.

**Monitorinqin rolu və təsiri**

Monitorinq tədris prosesinin keyfiyyətini artırmaq və idarəetməni dəstəkləmək üçün mühüm mexanizmdir. O mövcud çatışmazlıqları vaxtında aşkar etməyə, müəllim və şagirdlərin fəaliyyətini obyektiv şəkildə təhlil etməyə, zəif tərəflərin inkişafı və mövcud potensialın gücləndirilməsi üçün dəqiq istiqamətlər göstərməyə imkan yaradır. Bu yanaşma sayəsində tədris prosesi daha səmərəli təşkil olunur və nəticələrin davamlı olaraq yaxşılaşdırılması təmin edilir.

Peşə təmayüllü siniflərdə aparılan monitorinq yalnız cari vəziyyəti qiymətləndirməklə kifayətlənmir, həm də təhsil sahəsi üzrə idarəetmə orqanlarına və məktəb rəhbərliyinə tədrisin keyfiyyəti barədə etibarlı məlumat verir. Toplanılmış nəticələr təhsil siyasətinin hazırlanmasında, strateji qərarların qəbulunda və gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsində əsas baza materialı rolunu oynayır. Monitorinqin təsiri yalnız nəzəri biliklərin yoxlanılması ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin praktiki bacarıqlarını, yaradıcı və tənqidi düşünmə qabiliyyətini, əmək vərdişlərini və problem həlletmə potensialını əhatəli şəkildə qiymətləndirməyə yönəlir.

Beləliklə, düzgün planlaşdırılmış monitorinq tədris məzmunu ilə əmək bazarının tələbləri arasında uyğunluq yaradır və məsuliyyətli, yaradıcı və peşəkar mütəxəssislərin yetişdirilməsinə töhfə verir.

**Monitorinqin peşə təmayüllü siniflərdə tətbiqi və əhəmiyyəti**

Peşə təmayüllü siniflərdə monitorinqin tətbiqi tədrisin effektivliyini izləmək, inkişaf ehtiyaclarını müəyyənləşdirmək və davamlı təkmilləşdirilməsini təmin etmək baxımından xüsusi önəm daşıyır. Bu məqsədlə 2024–2025-ci tədris ilində ARTİ tərəfindən ölkənin 200 ümumi təhsil müəssisəsində fəaliyyət göstərən peşə təmayüllü siniflərdə 400 ixtisas qrupu üzrə monitorinq aparılmışdır. Monitorinqin subyektlərini məktəb rəhbərləri, ixtisas fənn müəllimləri, qrup rəhbərləri, şagirdlər və valideynlər təşkil etmişdir. Monitorinqin əsas məqsədi peşə təmayüllü siniflərin maddi-texniki bazası, tədrisin məzmunu və təşkili, təşkilati sənədlərin hazırlanması, qrup rəhbərlərinin fəaliyyəti, ixtisas müəllimlərinin pedaqoji-metodik işi, eləcə də şagirdlərin bilik, bacarıq və dərs prosesindəki fəallığı barədə sistemli və obyektiv məlumat toplamaqdır. Toplanılmış məlumatların təhlili həm PTS-lərin mövcud güclü tərəflərini, həm də inkişaf etdirilməsi vacib olan sahələri müəyyən etməyə imkan verir və bu, aşkar edilmiş boşluqların aradan qaldırılması üçün konkret addımların atılmasına yol açır. Bu səbəbdən aparılmış monitorinq prosesi aşağıdakı əsas istiqamətləri əhatə etmişdir:



Sadalanan istiqamətlər üzrə təhsilin keyfiyyəti və effektivliyini obyektiv şəkildə qiymətləndirmək üçün müxtəlif metod və alətlərdən istifadə olunmuşdur. Məlumat toplama üsullarına aiddir: müşahidə, müsahibə, anket sorğuları və ölçülə bilən indikatorlar. Qiymətləndirmə əvvəlcədən müəyyən edilmiş indikatorlara əsasən, 100 faizlik şkala üzrə aparılmışdır.

Monitorinq çərçivəsində, həmçinin məktəb rəhbərlərinin idarəetmədəki rolu, müəllim və qrup rəhbərlərinin iş mühitinə münasibəti, eləcə də şagird və valideynlərin tədris prosesindən məmnunluq səviyyəsi sorğu anketləri vasitəsilə öyrənilmişdir. Bu sorğular vasitəsilə əldə edilən rəylər PTS-in təşkili və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflərin formalaşdırılmasına əsas yaratmışdır. Monitorinq prosesi peşə təmayüllü siniflərdə dərs prosesinin keyfiyyətinə birbaşa təsir edən bütün əsas amillərin sistemli şəkildə nəzərə alınması ilə həyata keçirilmişdir. Bu istiqamətlərin hər biri davamlı inkişaf etdirildikdə və əlaqələndirilmiş şəkildə təkmilləşdirildikdə tədrisin keyfiyyəti yüksəlir.

Monitorinqin nəticələri göstərdi ki, peşə təmayüllü siniflərin fəaliyyəti müəyyən üstünlüklərlə xarakterizə olunur, lakin bəzi sahələrdə inkişaf və təkmilləşdirmə tədbirlərinə ehtiyac vardır. Tədrisin keyfiyyətini yüksəltmək və PTS-lərin fəaliyyətini daha səmərəli təşkil etmək üçün bir sıra prioritet istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi zəruridir. Bu istiqamətlərə aşağıdakılar daxildir:

- *maddi-texniki bazanın gücləndirilməsi, eləcə də dərsliklərin, avadanlığın tədris ilindən əvvəl təmin olunması;*
- *idarəetmədə vahid yanaşmanın tətbiqi nəticəsində PTS-lərin məktəbin digər sinifləri kimi tamhüquqlu fəaliyyət göstərməsinin təmin edilməsi;*
- *müəllimlərin pedaqoji və peşəkar potensialının artırılması;*
- *qrup rəhbərləri və ixtisas müəllimlərinin sənədləşmə işlərinin düzgün və səmərəli aparılması;*
- *peşəyönümlü fəaliyyətin səmərəli təşkili, şagirdlərin PTS-ə marağının artırılması və nəticədə yeni siniflərin açılmasına şərait yaradılması.*

Bu tədbirlərin həyata keçirilməsi peşə təmayüllü siniflərin fəaliyyətini daha məqsədyönlü, sistemli və səmərəli edəcək, müəllimlərin metodiki səriştəliliyini artıracaqdır. Şagirdlər isə nəzəri biliklərini praktiki bacarıqlarla möhkəmləndirməklə əmək bazarının tələblərinə uyğun peşə qabiliyyətləri əldə edəcəklər.

***200 peşə təmayüllü siniflərdə keçirilmiş keyfiyyət monitorinqinin nəticələri***




**Nəticə.** Monitorinqin keçirilməsi təhsil prosesinin real vəziyyətini obyektiv qiymətləndirmək, mövcud güclü tərəfləri və problemləri vaxtında müəyyənləşdirmək üçün vacibdir. Bu proses va-

sitəsilə toplanılan məlumatlar tədrisin məzmunu, müəllimlərin pedaqoji bacarıqları və maddi-texniki təminat barədə əsaslı qərarlar qəbul etməyə imkan verir. Monitorinq erkən mərhələdə çatışmazlıqları aşkarlayaraq onların aradan qaldırılması üçün effektiv tədbirlər görməyə, PTS-in fəaliyyətini təhlil etməyə, həmçinin şagirdlərin bilik və bacarıqlarının inkişafını izləməyə şərait yaradır. Nəticədə tədrisin keyfiyyəti yüksəlir, resurslardan daha səmərəli istifadə olunur və təhsil siyasətinin strateji hədəfləri ilə uyğunluq təmin edilir.

## İstifadə edilmiş ədəbiyyat

1. Wafudu S.J., Kamin Y.B. Realistic quality assurance for technical vocational education and training towards enhanced productivity: Literature Review. Elementary Education Online, 2023, 20(4), pp.858-869.
https://ilkogretimonline.org/index.php/pub/article/view/5333?utm_

2.https://edu.gov.az/az/programmes/pesetemayullu-siniflerin-teskili layihesi?utm_

3.https://arti.edu.az/2024/10/22/t%C9%99hsil institutut%C9%99r%C9%99find%C9%99n-respublikanin-muxt%C9%99lif-bolg%C9%99l%C9%99ri-uzr%C9%99-umumi-t%C9%99hsil m%C9%99kt%C9%99bl%C9%99rinin-pes%C9%99-t%C9%99mayullu-sinifl%C9%99rind%C9%99/?utm_

4.https://arti.edu.az/2025/03/06/pesətəmayullu-siniflərdə monitorinqlər kecirilib

5. Gisela W., Nurhening Y. Systematic Quality Management in Vocational Educational Institutes: Role of Teachers in Development ofOrganizational Quality. Jurnal Pendidikan Teknologi dan Kejuruan, 2018, Vol.24, №1, pp.162-170.
https://journal.uny.ac.id/index.php/jptk/article/view/18835/10795

**M.Eyvazova, G.Farajova**

### The importance of quality monitoring in vocationally oriented classes

**Absrtact**

Monitoring is an important mechanism for improving the quality of the teaching process and supporting management. Regular implementation of monitoring helps to identify existing shortcomings in teaching in a timely manner and to take appropriate measures to eliminate them. As a result, the teaching process becomes more efficient. The article discusses the effectiveness of vocational-oriented monitoring, its analysis, and the significance of its outcomes.

**М.Эйвазова, Г.Фараджова**

### Важность контроля качества в профессионально-ориентированных классах

**Аннотация**

Мониторинг является важным механизмом для повышения качества учебного процесса и поддержки управления. Регулярное проведение мониторингов позволяет своевременно выявлять существующие недостатки в обучении и принимать соответствующие меры для их устранения. Благодаря этим мерам учебный процесс становится более эффективным. В статье рассматриваются эффективность профессионально-ориентированного мониторинга, его анализ и значимость полученных результатов.